

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 187 (21.848)

*4 oktyabr 2017-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Rəsmi xronika***



Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qadınlar arasında voleybol üzrə Avropa çempionatında dördüncü yeri tutan milli komandamızın heyətini qəbul edib.

Prezident İlham Əliyev layiqli çıxış etmələri münasibətilə qadınlar arasında voleybol üzrə Avropa çempionatında dördüncü yeri tutan milli komandamızın heyətini təbrik edib. Bildirib ki, milli komandamızın çıxışı bütün azarkeşlərə böyük sevinc bəxş etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Ukraynanın xarici işlər naziri Pavlo Klimkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Həmin gün dövlətimizin başçısı Ümumdünya Boks Şurasının Bakıda keçirilən 55-ci Konvensiyasının nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 3 oktyabr tarixli sərəncamları ilə Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə bir qrup təhsil işçisi Azərbaycan Respublikasının fəxri adları ilə təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının təhsil işçiləri də vardır.

**Cavadov Mahmud İbrahim oğlu**
**Əkbərova Məsmə Sabir qızı**
**Əliyev Bəhman Şıxvəli oğlu**
**Hüseynova Lalə Emin qızı**

"Tərəqqi" medalı ilə,

**Abdullayev Cəmşid Həsən oğlu**
**Gülməmmədov Bəhram Gülməmməd oğlu**
**Heydərov Paşa Ələkbər oğlu**
**Nəcəfova Ruhiyyə Allahverdi qızı**

"Əməkdar müəllim" fəxri adı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzinin yenidən təşkili haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Stomatoloji Mərkəzi Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Stomatoloji Mərkəzə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla Stomatoloji Mərkəzin istifadəsində olan əmlak və avadanlıqların bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin balansına verilməsini təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin dövlət qeydiyyatına alınması ilə bağlı zəruri tədbirlər görsün.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 3 oktyabr 2017-ci il*

## "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə:

Allahverdiyeva Zenfira İsa qızına
Babayev Baba Mahmud oğluna
Məhərrəmova Esmira İbrahim qızına
Mustafayeva Yeganə Əbülfəz qızına – **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 3 oktyabr 2017-ci il*

## Naxçıvanda "Koton" Moda və Satış firmasının mağazası fəaliyyətə başlamışdır





Oktyabrın 3-də – ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 24-cü ildönümündə Naxçıvan şəhərinin Atatürk küçəsində Türkiyə Respublikasının "Koton" Moda və Satış firmasının yeni mağazası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri qardaş Türkiyənin "Koton" Moda və Satış firmasının Naxçıvanda mağazasının fəaliyyətə başlaması münasibətilə kollektivi təbrik etmiş, əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Naxçıvanda "Koton" Moda və Satış firmasının yeni mağazası əlamətdar gündə istifadəyə verilir. 1993-cü il oktyabrın 3-də ulu öndərimiz Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Əgər həmin tarixdə dahi şəxsiyyət ölkə Prezidenti seçilməsəydi, bugünkü müstəqil və inkişaf edən Azərbaycan da olmayacaqdı. Müstəqilliyin, dövlətçiliyin və sabitliyin qarantı olan ümummilli liderimiz Azərbaycanda hərtərəfli inkişafın əsasını qoydu. Ölkə Prezidentinin ulu öndərin yoluna sədaqətinin və bu yolu uğurla davam etdirməsinin nəticəsidir ki, bu gün Azərbaycanda sabitlik və davamlı inkişaf təmin olunub.

Ali Məclisin Sədri demişdir: Yeni xidmət sahələri, mağazalar və sosial obyektlər o ölkələrdə istifadəyə verilir ki, orada sabitlik və inkişaf var, insanların yaşayış səviyyəsi ilbəil yaxşılaşır. Azərbaycan da belə ölkələrdəndir. Ölkəmiz inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub. Bütün bunların nəticəsidir ki, Azərbaycanda dünyanın ən tanınmış firmaları və şirkətləri fəaliyyət göstərirlər. Blokada şəraitində olmasına və ölkənin əsas ərazisindən ayrı düşməsinə baxmayaraq Naxçıvan Muxtar Respublikasında da bütün sahələrdə inkişaf təmin olunub. Bu isə muxtar respublikada böyük firmaların fəaliyyəti üçün geniş imkanlar açır. "Koton" təkcə bir ölkəyə aid firma deyil, o dünya markasıdır. Firmanın o yerlərdə mağazaları fəaliyyət göstərir ki, orada inkişaf və sabitlik var, əhalinin yaşayış səviyyəsi və alıcılıq qabiliyyəti yüksəkdir. Məhz bu istiqamətlər üzrə apardığı araşdırmalardan sonra "Koton" firması Naxçıvanda da mağazasını açmağı qərara almışdır.

Ali Məclisin Sədri göstərilən bu təşəbbüsə görə "Koton" firmasının qurucularına və əməkdaşlarına təşəkkür etmişdir.

Ali Məclisin Sədri demişdir ki, "Koton" firmasının 28 xarici ölkədə və Türkiyədə, ümumilikdə 486 mağazası var. 12 mindən artıq işçisi olan firma hər il 50-dən artıq kolleksiyada alıcılara 30 min fərqli çeşiddə məhsul təklif edir. Avropa və Asiyada böyük nüfuza malik olan "Koton" firması 2025-ci ilə qədər dünyanın 5 qitəsində tanınmağı qarşıya məqsəd qoymuşdur. Bu səbəbdən "Koton" firmasının Naxçıvanda fəaliyyət göstərməsi mühüm əhəmiyyətə malikdir. Çünki bu mağaza yeni iş yerlərinin açılması ilə yanaşı, həm də Naxçıvanda turizmin inkişafına töhfə verəcək, gələn qonaqlar və muxtar respublika əhalisi keyfiyyətli məhsullarla təmin olunacaqdır.

Ali Məclisin Sədri "Koton" firmasının Naxçıvanda açılan yeni mağazasının uğurla fəaliyyət göstərəcəyinə əminliyini bildirmiş və kollektivə işlərində uğurlar arzulamışdır.

"Koton" Moda və Satış firmasının Xarici ölkələr üzrə bölgə meneceri Bahar Davran

*Ardı 2-ci səhifədə*

demişdir: “Koton” firması Naxçıvanda yeni mağazasının açılmasına mühüm əhəmiyyət verir. Çünki burada mağazanın fəaliyyəti üçün hərtərəfli şərait var. Keyfiyyətli xidmət göstərmək qarşımızda duran əsas vəzifədir. Bahar Davran göstərilən dəstəyə görə “Koton” Moda və Satış firmasının qurucuları və kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri mağazada yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, yaradıcı düşüncə, yenilikçilik, müştəri məmnuniyyəti, çeşid müxtəlifliyi və dizayn zənginliyi “Koton” firmasının əsas fəaliyyət istiqamətidir. Mağaza qadın, kişi və uşaq geyimləri bölmələrindən ibarətdir. Həmçinin burada firmanın istehsalı olan müxtəlif aksesuarlar və çantalar da alıcılara təklif olunur. Hər fəslə və dəbə uyğun mallar çeşid bolluğu, yüksək keyfiyyəti və sərfəli qiyməti ilə seçilir. Mağazada 21 nəfər işlə təmin olunub.

Ali Məclisin Sədri mağazanın fəaliyyətinin təşkili ilə bağlı aid təşkilatlara tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



*Müasirləşən kəndlərimiz*

# Dağlar qoynundakı qədim yurd yeri

***Bu günlərdə yolumuz Naxçıvan torpağını yaxın-uzaq ellərdə tanıdan qədim yurd yerlərimizdən biri olan Kəngərli rayonunun yaşayış məntəqələri içərisində yaşıllıqlar qoynuna sığınmış, min ağacdan diqqəti cəlb edən Qarabağlar kəndinə düşdü. Dərələyəz silsiləsinin sinəbəndi, qədim asma bağları ilə tarixçiləri, səyyahları heyrətləndirən, öz qədimliyinə Quti xatının şərəfinə ucaldılan möhtəşəm memarlıq kompleksiylə möhür vuran qədim yurd yerimiz insanı öz gözəlliyinə vurğun edir.***





Akademik İsmayıl Hacıyev qeyd edir ki, Kəngərli rayonunun Qarabağlar kəndi Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Kəndin şimal-şərqində Qalacıq adlanan ərazidə e.ə. II minilliyə və I minilliyin əvvəllərinə aid yaşayış yeri (sahəsi, təqribən, 40 hektar) aşkar edilmişdir. Burada tunc bəzək əşyaları, boyalı qab qırıqları, iri qaya parçalarından tikilmiş dördkünc və ovalşəkilli bina qalıqları tapılmışdır. Qarabağlardakı köhnə qəbiristanda at və qoç formalı qəbirüstü abidələr aşkar edilmişdir. Bu kənd ən qədim yaşayış məskənlərindən biri olmaqla, tariximizin orta əsrlər dövründə Azərbaycanın mühüm şəhərlərindən birinə çevrilmişdir. Deyilənlərə görə, qədim Qarabağların ərazisi indiki Tənənəm kəndinə qədər imiş. Həmin dövrlərdə Qarabağlar mədrəsələrində riyaziyyat, nücum elmləri öyrədilirmiş. Tarixən kənddə məskunlaşmış türk tayfalarının nişanələri də bu gün Qarabağların əsas məhəllələrinin adlarında yaşadılmaqdadır. Süleymanlı, Bəydilli, Ağahəsənli, Cığallı, Əlmədədli, Turabxanlı, Hacı Baxşəlilər məhəllələrinin sakinləri qədimdə burada məskən salmış ulu babalarının isti ocağının hənirtisini sönməyə qoymayan, torpağına bağlı insanlardır. Qarabağlar şəhəri orta əsrlərdə bir sıra görkəmli səyyah, tarixçi və coğrafiyaşünasların diqqətini cəlb etmişdir. Orta əsrlərin bir çox məşhur səyyahlarının əsərlərində şəhərin gözəl iqlim şəraiti, əhalisi, tarixi abidələri haqqında maraqlı məlumatlar vardır. Nizaməddin Şami, İbrahim Əfəndi Peçevi, Övliya Çələbi, F.Rəşidəddin, N.Xanıkov, Moryer, İ.Şopen, İ.Tavernye kimi alim və səyyahlar Qarabağlar haqqında çox qiymətli məlumatlar vermişlər.

XVII əsrdə Qarabağlarda, təqribən, 50 min adam yaşayırdı; 10 min ev, 70 məscid, 40 minarə, karvansara, hamam, bazar və sair var idi. Şəhərin ab-havasından, bağbağatından, meyvələrindən, xörəklərinin dadından Ö.Çələbi ürəkdolusu söhbət açırdı: “Allaha həmd olsun, bu şəhərin ab-havasının lətafətindən əhvalımız da xoş olub atlara süvar olmaqla bəzi rəfiqələrimizlə şəhərə tamaşa etdik... Havasının lətafətindən xoşüzlü məhbub və məhbubələrə rast gəlirdik. Yeyəcək və içəcəklərinin, meyvələrinin bənzəri heç bir diyarda yoxdur. Qara Bağlar desək, yerinə düşər. İşçiləri olduqca təmizdir. Zira cümləsi müsəlmandır”.

Bu gün quruculuq meydanı olan Qarabağlar kəndinin abad və müasir yurd yerinə çevrilməsində muxtar respublikada kəndlərin inkişafına verilən dəstək mühüm əhəmiyyət kəsb edir. Kəngərli rayonunun ən böyük yaşayış məntəqəsi olan Qarabağlara göstərilən böyük dövlət qayğısı kəndi şəhər mədəniyyətinə qovuşdurmuşdur. Hələ 2009-cu ildə burada inşa olunmuş kənd mərkəzi qarabağlarlılara bütün müasir xidmətlərin göstərilməsinə imkan yaradır. Həmin il öz müasir görkəminə qovuşmuş 522 yerlik 2 nömrəli və 2014-cü ildə əsaslı təmirdən sonra istifadəyə verilmiş 648 yerlik 1 nömrəli tam orta məktəblər, 2010-cu ildə istifadəyə verilmiş həkim ambulatoriyası kəndin simasına əsl şəhər yaraşığı verir. 2012-ci ildə istifadəyə verilmiş müasir Qıvraq-Qarabağlar-Çalxanqala-Təzəkənd dairəvi avtomobil yolu insanların rahatlığını təmin etmişdir. Belə bir rahat yol infrastrukturu təkcə 7 min nəfərdən artıq əhalisi olan Qarabağların deyil, ətraf kəndlərin də Naxçıvan şəhəri və rayon mərkəzi arasında rahat nəqliyyat marşrutlarının yaradılmasına imkan verir.

Geniş əraziyə malik Qarabağlar kəndində hazırda 7 min nəfərdən çox sakinin yaşadığı 1226 ev, 1695 ailə təsərrüfatı, 17 min 551 xırdabuynuzlu, 2165 iribuynuzlu, 25 min 542 quş, 110 arı ailəsi vardır. Kəndin suvarılan əkin sahəsi 850 hektardır. Əhalisinin əsas məşğuliyyəti heyvandarlıq və əkinçilikdir. Daha çox mal-qara saxlayan 20-yə yaxın iri fermer təsərrüfatı fəaliyyət göstərir. Son illərdə Qarabağlarda 20-dən çox yeni ev tikilmişdir. Kənd ərazisindəki 40-dan artıq kəhriz, 18 bulaq və çox sayda artezian quyusu burada əkinlərin suvarılması və əhalinin içməli su ilə təmin olunmasında mühüm rol oynayır. Qarabağlarda su deyərkən Asnı bulağının adı ilk olaraq çəkilir. Bu kəndin camaatı üçün “Asnı” həm də müqəddəs olan bir ziyarətgahın adıdır. Qarabağlar və ətraf bölgələr üçün xarakterik olan quraqlıq dövrlərində belə, bu bulağın suyu həyat mənbəyi olmuşdur. Hazırda burada çox sayda işçinin çalışdığı forel balığı yetişdirilməsi üzrə balıqyetişdirmə müəssisəsi fəaliyyət göstərir.

Kənddəki iş imkanlarına gəldikdə, kənd sakinləri buradakı xidmət və ticarət obyektləri ilə yanaşı, broyler müəssisəsində, lavaş sexləri, plastik qapı-pəncərə sexi və dəyirmanda öz məşğulluqlarını təmin edirlər. Qarabağlar daş məhsulları istehsalı isə bu kəndin əsas qazanc qapısı sayılır. Burada istehsal olunan daş məhsulları bu gün muxtar respublikamızda geniş vüsət almış quruculuq işlərində keyfiyyətli material kimi istifadə olunur, digər ölkələrə ixrac edilir.

Qarabağlar kəndi tarixən öz təhsil ənənələri ilə də seçilmişdir. Bu kənddə qarşısına müəllim olmaq məqsədi qoymuş yüzlərlə maarif və mədəniyyət işçisi yetişmişdir. Ümumiyyətlə, kəndin yetirməsi olmuş 45-dən çox elm xadimi müxtəlif vəzifələrdə xalqımızın maariflənməsinə xidmət etmişdir. Hazırda Qarabağlarda fəaliyyət göstərən iki tam orta məktəbin 2016-2017-ci tədris ilindəki 40 nəfər məzunundan 22-si ali məktəblərə qəbul olunmuşdur. Onlardan 3 nəfəri 500-700 bal intervalında nəticə göstərmişdir.

Müasirləşmə yolunda mühüm işlər görülmüş Qarabağlarda sosial həyat öz axarı ilə davam edir. Kənddə əhaliyə rabitə, bank, tibb xidmətləri göstərilməsi, enerji və təbii qaz infrastrukturunun tamamilə yenilənməsi əhalinin rifahına müsbət təsir edən amillərdəndir.

Qarabağların yerli xammalı olan üzlük daş plitələr və yüksəkkeyfiyyətli Naxçıvan sementi kənddə fərdi təsərrüfatlarda tikinti işlərinin aparılmasına geniş imkan yaradır.

Qeyd edək ki, Naxçıvandakı turizm marşrutlarından biri də Qarabağlar kəndindən keçir. Muxtar respublikamıza gələn qonaqlar Qarabağlar kəndindəki tarixi abidələrə böyük maraq göstərirlər. Kənddəki abidələrin yenidən həyata qaytarılması turist axınını gücləndirəcək, təbii ki, bu hal əhalinin sosial imkanlarının daha da yaxşılaşmasına öz müsbət təsirini göstərəcəkdir.

*Bu gün qədim Qarabağlar öz inkişafının yeni bir mərhələsindədir. Yaradılan şəraitə və məşğulluq imkanlarına görə minnətdarlıqlarını bildirən sakinlər bundan sonra da muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının bolluğunun yaradılmasına öz töhfələrini verəcəklərini qeyd etdilər.*

**Ramiyyə ƏKBƏROVA**

# *“Cahan”* İnşaat Materiallarının Satış Mərkəzi əhaliyə nümunəvi xidmət göstərir




***Bu gün muxtar respublikada aparılan genişmiqyaslı quruculuq tədbirləri inşaat materiallarına olan tələbatı da əhəmiyyətli dərəcədə artırıb. Hazırda Naxçıvan şəhərində və ətraf kəndlərdə fərdi evlərin inşası da dinamik sürətlə davam edir. Təbii ki, bu proses ağır inşaat materiallarına olan tələbatı da artırır.***

Bu tələbat nəzərə alınaraq Naxçıvan dairəvi avtomobil yolunun kənarında ayrılmış ərazidə “Cahan” İnşaat Materiallarının Satış Mərkəzi istifadəyə verilib ki, bu da ağır inşaat materiallarının satışına və yük avtomobillərinin şəhərə daxil olmadan hərəkətinə əlverişli şərait yaradıb.

Hazırda mərkəzdə dam örtükləri və onun aksesuarları, gips, kirəc, sement, əhəng, armatur və profillər, dam örtüyünün vurulmasında istifadə olunan ağac materialları, üzlük daşlar, su və kanalizasiya sistemlərinin qurulmasında istifadə olunan quyu qapaqları, su şlanqları, plastik borular, müxtəlif ölçülərdə su çənləri satılır.

Burada mərkəzin məsul əməkdaşı Orxan Rzayevlə də görüşüb həmsöhbət olmaq imkanı əldə etdik. O bildirdi ki, ilk illərdə inşaat materiallarının əksəriyyəti Bakı şəhərindən və xarici ölkələrdən – Türkiyə, Ukrayna, Rusiyadan gətirilirdi. Bu da məhsulun maya dəyərinin yüksəlməsinə səbəb olur, müştərilərin istehlak qabiliyyətini zəiflədirdi. Ancaq son illərdə muxtar respublikada inşaat materialları sənayesinin yetəri dərəcədə formalaşması vəziyyəti köklü surətdə dəyişib. Sevindirici haldır ki, inşaatın ilkin mərhələsində, eləcə də sonrakı mərhələlərdə istifadə olunan materialların əksər hissəsi muxtar respublikanın özəl sektorunda istehsal edilib. Bu da qiymət artımının və vaxt itkisinin aradan qaldırılmasında mühüm amildir.

Mərkəzin metal əşyalar bölümünün satıcısı İlham Məmmədovla söhbət zamanı bildirdi ki, metal materiallar o biriləri ilə nisbətdə çox ağır olduğundan onların yük maşınlarına yüklənməsi də zəhmət tələb edir. Burada işçi əməyinin daha da yüngülləşdirilməsi üçün qaldırıcı və yükləyici avadanlıqlar quraşdırılıb, əl əməyi, demək olar ki, yarıbayarı azaldılıb. Satış prosesinin sürətlə həyata keçirilməsi, təbii ki, müştərilər tərəfindən məmnuniyyətlə qarşılanır, alıcılar məhsulların qiymət və keyfiyyətindən razılıq etməklə bərabər, həm də qısa zamanda material əldə etdikləri üçün məmnunluqlarını bildirirlər. Bu da qarşımızda qoyulan əsas tələb olan müştəri məmnuniyyəti qazandığımızın göstəricisidir.

Satış mərkəzində olarkən şəhərimizin Nəcməddin Naxçıvani küçəsində fərdi ev tikdirməyə hazırlaşan Nəcəf Orucovla da görüşüb həmsöhbət olduq. O bildirdi ki, mərkəzdə evə lazım olan keyfiyyətli materialların əksəriyyətini sərfəli qiymətə və qısa zaman ərzində əldə edə bilib, mərkəz əməkdaşları tərəfindən ona müvafiq güzəştlər də olunub. Gələcəkdə ev tikdirmək istəyən yaxınlarına da mərkəzin xidmətlərindən istifadə etməyi məsləhət görəcək.

Daha bir alıcı olan Seyfəddin Zalov da mərkəzin göstərdiyi xidmətlərdən razılıq etdi. Dedi ki, bir atanın övladı qarşısında borcu onu ev-eşik sahibi etməkdir. Onun atası sovetlər dövründə ev tikdirmək üçün az əziyyətlər çəkməyib, müxtəlif qurumların qapılarını az döyməyib. O zaman hər hansı bir inşaat materialını əldə etmək çətin idi. Əlində kifayət qədər pulun olsa da, material elə bil qəhətə çıxmışdı. Bəzən bunun üçün dost, qohum qapısına getmək, kimdənsə xahiş etmək lazım gəlirdi. Ancaq indi bütün bu çətinliklər aradan qalxıb. O, əlində siyahı “Cahan” İnşaat Materiallarının Satış Mərkəzinə gəlib və bu siyahı əsasında bütün materialları sərfəli qiymətə ala bilib.

“Cahan” İnşaat Materiallarının Satış Mərkəzinin əməkdaşları ilə söhbətlərdən belə bir fikir hasil oldu ki, bundan sonra da əhaliyə nümunəvi xidmət göstərilməsi üçün səylə çalışacaqlar.

**Səbuhi HÜSEYNOV**

Naxçıvan Dövlət Universiteti – 50

# İqtisad fakültəsi

## Naxçıvan Dövlət Universitetinin nailiyyətlərinin təcəssümü kimi

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 14 yanvar tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi qeyd edilməkdədir. Bununla əlaqədar Tədbirlər Planı təsdiq edilib. Sərəncamda bu ali təhsil ocağının yarım əsr ərzində keçdiyi inkişaf yolu yüksək qiymətləndirilərək deyilir:* ***“Naxçıvan Dövlət Universiteti yüksək ixtisaslı kadrların yetişdirilməsinə, elmi və ali təhsil mühitinin formalaşmasına öz təsirini göstərmiş, fəaliyyət göstərdiyi dövrdə universitetin 30 minə yaxın məzunu olmuşdur. Naxçıvan Dövlət Universitetinin məzunları ölkəmizdə milli dövlət quruculuğunun və təsərrüfat həyatının müxtəlif sahələrində çalışaraq iqtisadi, elmi və mədəni potensialın gücləndirilməsinə layiqli töhfələr verirlər”.***



Dahi şəxsiyyətləri, zəngin təbiəti, mehriban insanları, gözoxşayan məkanları ilə seçilən qədim Naxçıvan torpağı əsrlərdən bəri öz elmi potensialı ilə fərqlənmişdir. Çoxsaylı mütəfəkkir və alimlər ordusunun vətəni hesab olunan bu diyar zamanla özünün elm və təhsil məbədlərini yaratmış və inkişaf etdirmişdir.

1967-ci ildə isə muxtar respublikanın paytaxtında sonradan özünün möhtəşəmliyi və geniş imkanları ilə seçiləcək bir elm ocağının təməli qoyulur. Həmin ildən 1972-ci ilədək Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı kimi fəaliyyət göstərən ali məktəb 1972-ci ildə 3 fakültə və 14 kafedradan ibarət olan müstəqil ali təhsil subyektinə çevrilir.

Naxçıvanın təhsil və elm mühitində 29 dekabr 1990-cı il kifayət qədər əhəmiyyətə malik tarix kimi dəyərləndirilir. Məhz bu zaman ifadəsi sonralar, müstəqillik dövründə regionun tanınmış ali təhsil ocaqlarından birinə çevriləcək, Avropa, Asiya və Amerika qitələrinin bir sıra bilik məbədləri ilə qarşılıqlı əlaqələr quracaq elm ocağının – Naxçıvan Dövlət Universitetinin yaranma tarixi hesab olunur.

XXI əsrin Naxçıvan Dövlət Universiteti kontingenti beş min tələbədən çox olan, kifayət qədər güclü maddi-texniki bazası ilə fərqlənən müəssisədir.

Hazırda onun tərkibində 11 fakültə və 52 kafedra fəaliyyət göstərir. Bəhs olunan strukturlar içərisində İqtisad fakültəsi özünəməxsus fəaliyyət və təşkilatlanma xüsusiyyətləri ilə fərqlənir. İlk qəbulu 1989-cu ildə Ümumi texniki fənlər fakültəsi nəzdində həyata keçirilmiş, 1992-ci ildən isə müstəqil fakültəyə çevrilmiş bu qurum, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının iqtisadi həyatında mühüm rol oynamışdır.

Bu gün İqtisad fakültəsinin məzunları ölkəmizin müxtəlif strukturlarında layiqincə təmsil olunurlar. Onlar Azərbaycan Respublikasının gömrük, vergi, iqtisad təmayüllü orqanlarda fəaliyyətlərini dövlətçilik, müstəqillik və qanunçuluq kimi prinsiplər əsasında qururlar. Hazırda fakültə məzunlarından 4 general, çoxsaylı dövlət mükafatları laureatları, Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunanlar, 20-dən çox iqtisad üzrə fəlsəfə doktoru vardır ki, onlar da vətənimizin çiçəklənməsi naminə çalışmaqdadırlar.

İlkin qəbulunu 2 ixtisasla – İstehsalın iqtisadiyyatı və idarə edilməsi və Mühasibat uçotu, Nəzarət və təsərrüfat fəaliyyətinin təhlili ixtisasları ilə başlayan bu fakültə sonradan öz fəaliyyətini genişləndirmiş, hazırda 4 ixtisas üzrə – İqtisadiyyat, Mühasibat uçotu və audit, Dünya iqtisadiyyatı və Menecment ixtisasları üzrə mütəxəssis hazırlamaqdadır. Bununla belə, müxtəlif dövrlərdə Gömrük işinin təşkili, Dövlət və bələdiyyə idarəetməsi, Maliyyə ixtisasları üzrə kadrların hazırlanması da həyata keçirilmişdir. Fakültədə əyani və qiyabi (ənənəvi və əlavə təhsil) şöbələr üzrə təhsil aparılmaqdadır.

Fakültədə 2 iqtisad təmayüllü dərnək təşkil olunmuş, hər həftənin şənbə günü isə ingilis dilinin daha yaxşı mənimsənilməsi məqsədilə “Conversation-club”un yığıncaqları keçirilməkdədir.

Fakültə tələbələrinin təhsil səviyyəsini artırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq fakültə üzrə mövcud olan İqtisadiyyat, Dünya iqtisadiyyatı və Menecment ixtisasları üzrə İqtisadiyyat Nazirliyi ilə, Mühasibat uçotu və audit ixtisası üzrə isə Maliyyə Nazirliyi ilə qarşılıqlı razılaşmalar əldə olunmuş və birgə işlər aparılmaqdadır. Bu istiqamətdə təkcə 2016-2017-ci tədris ilində bu qurumların hər biri ilə 9 görüş nəzərdə tutulmuş, onlardan hər biri üzrə 7-si reallaşdırılmışdır.

İqtisad fakültəsinin tələbələri istər universitetdaxili, istərsə də muxtar respublika və respublika səviyyəli yarış, müsabiqə və digər tədbirlərdə də aktiv iştirak etməkdədirlər. Belə ki, təkcə ötən tədris ilinin I semestrində fakültə 2 kubok, 19 fəxri fərman və təşəkkürnamə qazanmışdır. Buna misal olaraq Bakı şəhərində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən təşkil edilən “Vergilər” olimpiadasında iştirak etmiş 5 tələbənin qalib yerlər tutmasını göstərmək olar. Həmçinin universitetin I kursları arasında keçirilən və 2016-cı ildə 10-17 noyabr – Beynəlxalq Tələbə Həftəsinə həsr olunmuş idman növləri üzrə yarışlarda fakültənin tələbələrinin I yer tutması da sevindirici haldır. Bəhs olunan nailiyyətlərə fakültə tələbələrinin ötən tədris ilində muxtar respublikanın müxtəlif nazirlik və təşkilatları tərəfindən keçirilən tədbirlərdə uğurlu iştirakını da əlavə etmək yerinə düşərdi.

Fəxarətlə qeyd olunmalıdır ki, 2015-2016-cı tədris ilinin məzunlarından müxtəlif ali məktəblərin magistraturalarına 18 nəfər qəbul olunmuşdur. Onlardan da 6-sı tanınmış (İtaliya, İngiltərə, İspaniya) xarici ölkələrin ali təhsil ocaqlarında təhsil alırlar.

İqtisad fakültəsində həyata keçirilən tədbirlər sırasında əyləncə təyinatlı tədbirlər özünəməxsusluğu ilə seçilir. Belə ki, Yeni il, Novruz şənlikləri kimi mərasimlərdə fakültəmizin müəllim-tələbə heyətinin mütəşəkkil iştirakı təmin olunur, onların fərdi yaradıcılıq imkanlarının üzə çıxmasına şərait yaradılır.

Fakültə tələbələrinin tarixi, mədəni və digər yönlərdə olan dünyagörüşünü genişləndirmək, onların bu sahədə olan biliklərini artırmaq məqsədilə muzeylərə, sərgilərə, digər mədəniyyət obyektlərinə ekskursiyalar təşkil olunur.

Hazırkı dövrdə fakültə nəzdində 3 ixtisas kafedrasının – İqtisadiyyat, Mühasibat uçotu və maliyyə, Dünya iqtisadiyyatı fəaliyyəti təmin olunmuşdur. Kafedraların pedaqoji heyəti 2 iqtisad üzrə elmlər doktoru, 16 iqtisad üzrə fəlsəfə doktoru olmaqla, 32 müəllimdən və kənardan dəvət olunmuş mütəxəssislər vasitəsilə formalaşıb. İxtisas kafedraları ilə birlikdə 60 nəfər müəllim və tədrisə köməkçi heyət tələbələrin qayğıları ilə məşğul olmaqdadır. Bu qurumların nümayəndələri tədris prosesində aktiv iştirak etməklə yanaşı, elmi fəaliyyətlərini də davam etdirirlər.

Qeyd etmək yerinə düşər ki, təkcə bu il kafedralar vasitəsilə 3 problem üzrə fərqli istiqamətləri əhatə edən 22 elmi-tədqiqat işi yerinə yetirilməkdədir.

Kafedraların əməkdaşları sosial-iqtisadi, mədəni-maarif həyatında layiqincə iştirak edir, kütləvi informasiya vasitələrində müxtəlif iqtisadi situasiya və problemlərlə bağlı öz dəyərli fikirlərini bildirir, orta təhsil ocaqlarında nümunəvi dərslər keçir, beynəlxalq iqtisadi təcrübənin ölkə və muxtar respublika miqyasında yayılmasına yardım edir, şərh və məsləhətlərini verirlər.

2007-ci ildə universitetin 40 illik yubiley tədbirləri ilə əlaqədar olaraq İqtisad fakültəsinin əməkdaşlarından 3 müəllim “Tərəqqi” medalına layiq görülmüşdür.

2016-2017-ci tədris ilində fakültənin 2 əməkdaşı Avropa Yayım Birliyinin təqdim etdiyi nominasiyalar üzrə qızıl medallarla təltif olunmuşdur.

Yarandığı vaxtdan bu günədək kafedra əməkdaşlarının 100-dən çox kitab və monoqrafiyaları, dərslik və dərs vəsaitləri işıq üzü görmüş, minlərlə məqalə və tezisləri ölkədaxili və xarici mətbuatda çap olunmuşdur ki, bu da fakültənin artan elmi potensialından xəbər verir.

Bu yaxınlarda fakültə üçün istifadəyə veriləcək ikimərtəbəli müasir tədris korpusu öz yeni tədris və texnoloji avadanlıqları ilə pedaqoji heyəti təhsildə yeni nailiyyətlər qazanmağa sövq edəcək.

*Sadalanan çoxsaylı məqamlar İqtisad fakültəsinin uğurlu və şərəfli yol keçməsinə dəlalət edir. Gələcəkdə fəaliyyətimizin günün tələblərinə uyğun təşkili nəticəsində bu uğurların sayı artacaqdır.*

**Mehdi BAĞIROV**
***Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanı***

## “Naxçıvan memarlığı bu gün” sərgi-müsabiqəsinin yekun tədbiri keçirilib



*Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin sədri Heydər Əhmədov açaraq bildirib ki, sərgi-müsabiqənin keçirilməsində məqsəd muxtar respublika memarlarının bacarıq və ideyalarını üzə çıxarmaq, müasir Naxçıvan memarlığının müstəqillik illərindəki inkişafını əl işlərinin timsalında təqdim etməkdir.*

Qeyd olunub ki, son illər aparılan tikinti-quruculuq işlərinin geniş vüsət alması nəticəsində Naxçıvan şəhərinin, eyni zamanda rayon mərkəzlərinin və kəndlərimizin siması xeyli dərəcədə dəyişib. Muxtar respublikamızın ən ucqar dağ kəndində belə, müasir tələblərə cavab verən bir-birindən yaraşıqlı binalar inşa olunub. Son illərdə tikilən binalar qədimliklə müasirliyi özündə cəmləşdirməklə yanaşı, memarlıq üslubuna görə də seçilir. Bu binalar yerləşdikləri ünvanlara xüsusi gözəllik verir, ətrafla harmoniya yaradır. Dünya, eləcə də tanınmış Azərbaycan memarlarının təcrübəsini mənimsəyən memarlarımız muxtar respublikanın inşaat sektoruna yeni üslublar və müasir dizayn formaları gətirməkdədirlər.

Sonra Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin üzvü Qabil Cəfərova, Naxçıvan Dövlət Universitetinin baş müəllimi, Memarlıq üzrə fəlsəfə doktoru, dosent Qadir Əliyevə, universitetin baş müəllimi Abbas İsayevə Beynəlxalq Memarlar Günü münasibətilə hədiyyələr verilib.

Tədbirdə Memarlar Birliyi sıralarına yeni qəbul olan və müsabiqədə əl işlərini nümayiş etdirən bir neçə nəfərə birliyin üzvlük vəsiqəsi təqdim olunub. Birliyin üzvü Qabil Cəfərov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin II kurs tələbəsi Mina İsmayılova çıxış edərək Naxçıvan memarlıq məktəbinin özünəməxsus tarixi inkişaf yolundan danışıblar.

Diqqətə çatdırılıb ki, müsabiqənin qalibləri münsiflər heyəti tərəfindən müəyyənləşdirilib, müxtəlif nominasiyalar üzrə memarlar seçilib.

Yekunda münsiflər heyətinin qərarı ilə “Naxçıvan memarlığı bu gün” sərgi-müsabiqəsinin qalibləri elan edilərək pul mükafatları təqdim olunub.

Qeyd edək ki, müsabiqədə birinci yerə fərqli ideya, aydın fikir ifadəsinə görə “Məscid” eskiz layihəsinin müəllifi Şəfəq Cəfərova, ikinci yerə sahədə binanın düzgün yerləşdirilməsi, baxımlı fasad görünüşü və yüksəkkeyfiyyətli render işinə görə “10 mərtəbəli yaşayış binası” eskiz layihəsinin müəllifi İmran Hüseynov, üçüncü yerə müxtəlif materiallarla dəqiq maket və rekonstruksiyanın düzgün həllinə görə “Duty-Free” və “Gənclər şəhəri” maketlərinin müəllifi Heydər Əhmədov layiq görülüb. Bundan başqa, iştirakçılara həvəsləndirici diplomlar təqdim olunub.

Sonda memarlarımızın əl işlərindən ibarət sərgiyə baxış olub.

**Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan diyarında sənətkarlıq və ticarətin inkişaf tarixinə həsr edilən kitabın təqdimatı olub



***AMEA Naxçıvan Bölməsində Əməkdar incəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradovun “Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri)” monoqrafiyasının təqdimatı keçirilib.***

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq çoxsaylı tədqiqatların nəticəsini özündə əks etdirən yeni nəşrin Azərbaycan tarixşünaslığı üçün elmi əhəmiyyətindən danışıb. O, Vidadi Muradov tərəfindən aparılan araşdırmalar zamanı Naxçıvan xalçaçılıq məktəbinin, Naxçıvan xalçalarının texniki və bədii xüsusiyyətlərinin tədqiq və təhlil olunduğunu diqqətə çatdırıb. Bildirilib ki, professorun Naxçıvan xalçaçılıq tarixi ilə bağlı tədqiqatları respublikamızın müxtəlif elmi jurnal və qəzetlərində işıq üzü görüb. Onun araşdırmaları Azərbaycan, ingilis, rus dillərində dərc edilən “Naxçıvan xalçaçıları” adlı kitablarda, “Azərbaycan xalçaları: Naxçıvan qrupu” filmində əksini tapıb.

İsmayıl Hacıyev Naxçıvanda xalq yaradıcılığı – xalçaçılıq sahəsinin inkişafındakı səmərəli xidmətinə görə Vidadi Muradovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 7 noyabr tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi” fəxri adına layiq görüldüyünü bildirib.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin “Naxçıvan diyarında sənətkarlıq və ticarətin inkişaf tarixinə həsr edilmiş qiymətli monoqrafiya” mövzusunda məruzəsi dinlənilib. Məruzəçi ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixinin yeni dövrün tələblərinə əsasən öyrənilməsi və tədqiqi zərurətini alim və ziyalılar qarşısında mühüm məsələ kimi qoyduğunu, Prezident İlham Əliyev tərəfindən ulu öndərin siyasətinin bütün sahələrdə inamla, uğurla davam etdirildiyini vurğulayıb. İctimaiyyətə təqdim edilən yeni nəşri tədqiqatçılar üçün dəyərli mənbə kimi qiymətləndirən alim monoqrafiyanın XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında sənətkarlıq və ticarətin tədqiqinə həsr olunduğunu bildirib.

Qeyd edilib ki, çoxsaylı arxiv materiallarının və 449 adda ədəbiyyat mənbələrindən istifadə edilən nəşrdə ticarətin və sənətkarlığın vəziyyətinə təsir göstərən bir sıra amillər, o cümlədən diyarın siyasi və sosial-iqtisadi vəziyyəti ilə bağlı araşdırmalar yer alıb.

Təqdimat mərasimində bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sara Hacıyeva, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri Fizzə Quliyeva çıxış edərək monoqrafiyanın Naxçıvanın sənətkarlıq və ticarət tarixi sahəsində məlumatları özündə cəmləşdirən dəyərli mənbə olduğunu vurğulayıblar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Dövlətimiz onların ən böyük himayəçisidir

## *Şahbuz şəhərindəki Ahıllar Evinin sakinləri bu ünvanı özlərinə doğma ocaq seçiblər*

"Bu gün artıq 5 il 3 ay 18-ci günüm keçir bu evdə. Yaşlansam da, yaddaşım zəifləyib, çox şeyi unutsam da, burada keçən günlərimi saymağı bir an belə unutmadım. Çox gözlədim ömrümü qurban verməkdən, bir an belə tərəddüd etmədiyim övladımın yolunu... Bəlkə, nə vaxtsa gələr, axtarar, nəyin var, nəyin yox, xəstələnmisən, elə, bəlkə, ölmüsən? – deyə maraqlanar, amma çox təəssüf ki, nə gəldi, nə axtardı...

– Bilirsən bala, insanı ən çox nə incidir? O, uşaqkən mən onu bir an belə, yanımdan ayırmazdım, heç kimə güvənib, əmanət edə bilməzdim. İndi necə oldu axı məni tanımadığı insanlara əmanət etdi?!"

Bu sözləri hələ illər əvvəl Bakı şəhərində baş çəkdiyim Ahıllar Evində Pakizə nənə mənə demişdi. Hər dəfə yaşlı insanlar ilə görüşə gedəndə qəribə hisslər keçirirəm. Söhbət zamanı bəzən utanaraq, çəkinərək verdiyim suallarla onları üzməməyə çalışsam da, yaşadıqları həyat hekayəsini dinləmək istəyindən də özümü saxlaya bilmirəm. Hər biri də maraqlı, çətin və mübarizələrlə dolu keçən ömrün insanları... Bəzilərinin gözü hələ də yoldadır, bəziləri üçün isə bura ömürlərinin sonunadək yaşayacağı bir doğma ocaqdır. O doğma ocaq ki burada onların təsəlliləri dövlətimizin himayəsi altında olmalarıdır. Elə bizim də. Şahbuz şəhərində yerləşən Ahıllar Evinə bu səfərimdə də məni ora getməyə cəsarətləndirən dövlətimizin bu təbəqədən olan insanlara həssas münasibəti, mənim isə onları ziyarət etməyimlə qazanacağım mənəvi məmnuniyyətim idi.

Azərbaycanda iki ahıllar evindən biri olan bu məkanda bizi ilk qarşılayan direktor Ülviyyə Quliyeva oldu. Həmsöhbətimiz dedi ki, həyat təcrübəsi ilə gələcək nəsillərə nümunə olan ahıllara hörmət və qayğı həm də nəsillər arasında körpü yaratmaq, varislik əlaqələrini bərpa etmək kimi mühüm amala xidmət edir. Yaşlı nəslə diqqət və qayğı milli dəyərlərimizin bir parçası olduğundan muxtar respublikamızda ahıllara həmişə xüsusi diqqət yetirilir, onların sosial müdafiəsi gücləndirilir. Elə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" da bu sahədə aparılan təqdirəlayiq işlərin əsas göstəricilərindən biridir. Ahıl vətəndaşların cəmiyyətə inteqrasiyası, sağlam həyat tərzinə uyğun yaşamalarının təmin edilməsi istiqamətində həyata keçirilən belə tədbirlər onların sosial rifahının daha da yaxşılaşmasına xidmət edir. Şahbuz rayonunda hər cür şəraitlə təmin olunaraq ahılların



istifadəsinə verilmiş Ahıllar Evinin fəaliyyətinin təşkili də tənha ahıllara göstərilən dövlət qayğısının bir nümunəsidir. Hazırda 10 ahılın yaşadığı bu məkanda sakinlərin rahatlığı üçün hər cür məişət şəraiti var. Üç mərtəbədən ibarət olan binada 38 yaşayış otağı yerləşir. Eyni zamanda ahılların asudə vaxtlarını səmərəli keçirmələri üçün burada klub, əmək terapiyası, xalçaçılıq, toxuculuq otaqları, idman zalı, kitabxana da fəaliyyət göstərir. Kitabxanadakı kitablar ahılların istəyi ilə onlara oxucu tərəfindən oxunur. Klubda isə onlar müxtəlif stolüstü oyunlar oynamaqla vaxtlarını dəyərləndirə bilirlər.

Ülviyyə Quliyeva onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri mütəmadi olaraq buraya gələrək ahılları müayinədən keçirir, müalicələrinə köməklik göstərirlər. Onlar əlamətdar günlərdə də yaddan çıxmır, buranın sakinləri ilə görüşlər təşkil olunur, sovqatlar təqdim edilir.

Müsahibimizdən bu məlumatları aldıqdan sonra müəssisənin şəraiti ilə daha yaxından tanış olmaq üçün otaqlara baş çəkirik. Dəhlizlərdə ilk diqqətimi çəkən sakitlik və gözoxşayan səliqə-sahman olur. Bu, məndə xoş təəssürat yaradır və buradakı sakitlik, dinclik və daxili rahatlıq içində yaşamaq, məncə, elə bu insanların arzuladıqları ən böyük nemətdir...

Ülviyyə xanımla Səməngül nənəni ziyarət edirik. Qarşımızda gözlərində yorğunluq əks olunan, lakin üzü nurlu, mehriban təbəssümlü bir qadın... Sanki illərdir, bu qadını tanıyıram. Öz doğma anam kimi bərk-bərk qucaqlayıram, o da məni öz doğma balasıtək bağrına basır. Mənə yanında yer göstərir. Əlini əllərimin üzərinə qoyub, mehriban baxışlarla mənə baxır. Mənsə o an nə deyəcəyimi, nə edəcəyimi bilmirəm. Qəribə hisslər keçirirəm, bir az sevincli, bir az qəmli, bir az da kövrəlmişəm nədənsə... Sevincliyəm ona görə ki, bu evə sığınan həssas qəlbli ahıllara yüksək səviyyədə, bəlkə də, öz övladlarının belə, onlara verə bilməyəcəyi rahat şərait təqdim olunub. Qəlbimi saran kövrək hisslərin səbəbi isə Səməngül nənənin hər baxışda övlad sevgisi, hər toxunuşda övlad nəvazişi axtarması idi. O, şəxsi həyatı haqqında danışmayacağını, ancaq buradakı şəraitdən məmnuniyyətlə söz açacağını deyir: "Bizə çox yaxşı baxırlar. Paltarlarımızı yuyurlar, otağımızı yığışdırırlar, vaxtlı-vaxtında yeməyimizi verirlər. Otağımızda televizor, rahat yataq, hər cür şərait var".

Şəxsi həyatından danışmayacağını desə də, sanki dərdləşməyə bir dost, sirdaş axtaran Səməngül Kazımovanın elə özündən öyrənirəm ki, 83 yaşlı bu qadın əslən Culfa rayonundandır. Bir qız övladı olub ki, o da qəfil xəstəlik səbəbindən 15 il əvvəl dünyasını dəyişib. İndi nənənin övladından yadigar qalan tək bir nəvəsi var. Tez-tez olmasa da, nəvəsi ona baş çəkmək üçün gəlir. Bu, ona az da olsa, təsəllidir...

Səməngül nənə bu günü üçün Uca Yaradana şükür edir. Deyir ki, tale övladımı əlimdən aldı, ancaq bu evdə mənə yeni övladlar qazandırdı. Bura mənimçün doğma ocaq, buranın işçiləri mənə mehriban ailə oldu.

Digər bir otaqda isə qapını üzümüzə açan 87 yaşlı Zeynəb Fərəcova olur. Zeynəb nənə artıq 7 ildir ki, bu evdə yaşayır. 45 yaşında ailə quran Zeynəb nənənin övladı olmur və tale elə gətirir ki, həyat yoldaşı da dünyasını dəyişir. Elə o vaxtdan sonra qardaşları ilə eyni evdə yaşamağa məcbur olur. Deyir ki, bir evdə bir neçə ailə yaşamaq məcburiyyətində idik. Burada yaşamaq üçün qardaşımı çox çətinliklə razı saldım.

Zeynəb nənənin sözlərinə görə, burada günləri evdəkindən daha yaxşı keçir. Qardaşları zaman-zaman onu ziyarətə gəldiyindən, özü də xalçaçılıqla məşğul olduğundan onun darıxmağa, necə deyərlər, vaxtı olmur.

İndi isə üz tuturuq Ahıllar Evi üzvlərinin ən çox vaxtlarını dəyərləndirdikləri kluba. Burada tanış olduğumuz Mustafa Məmmədov və Hüseyn İsmayılov nərd oynayırlar. Oyuna elə maraqla aludə olublar ki, içəri daxil olmağımızın fərqinə belə varmırlar. Əyləşdikləri masaya yaxınlaşıb, salamlaşıb hal-əhval tuturam. Nisbətən daha gümrah görünən Mustafa Məmmədovun söhbətcil olduğu ilk baxışdan diqqətimi cəlb edir. Fikirlərimdə yanılmıram. 89 yaşlı Mustafa baba sanki ürəyindəki dərd-səri bölüşmək üçün gəldiyimizə çox sevinir. Nəhayət, gözlərini bir nöqtəyə dikib dillənir: "Eh nə bilim, ay bala, bu tale ki var, hər kəsə bir oyun oynayır. Əlimizdən nə gəlir?! Əlbəttə, heç nə. Sadəcə, səbir etmək lazımdı, yaşamaq üçün..."

...Mustafa baba deyir ki, bir oğlum var. Demirəm nasil övladdı. Çünki dilim gəlməz belə deməyə. Axı öz övladımdı. Pisi də, yaxşısı da mənim adımdı. Bir gün evdə söz-söhbət oldu. Günlərlə, həftələrlə danışdırmadı məni. Sonra təsadüfən qəzetdə buradakı Ahıllar Evi ilə bağlı bir xəbər oxudum. Ertəsi gün heç kimə xəbər etmədən, səssizcə çıxıb gəldim bugünkü doğma evimə.

Bayaqdan bəri bizi foyedə gözləyən Ülviyyə xanımla söhbətimiz davam edir. Bildirir ki, dövlətimiz tərəfindən burada məskunlaşan ahıllara böyük qayğı göstərilir. Hər kəsin maraq dairəsi, xarakteri nəzərə alınıb. Burada müxtəlif əl işləri ilə məşğul olan ahıllarımız var. Həmçinin həyətyanı sahəmizdə təsərrüfata marağı olanlar sahədəki ləklərə qulluq edir, müxtəlif bostan məhsullarının yetişdirilməsində iştirak edirlər. Bundan əlavə, əlamətdar günlərdə, bayramlarda ahıllarımızı görməyə gələnlər çox olur, burada müxtəlif tədbirlər, o cümlədən konsert proqramları təşkil edilir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri mütəmadi olaraq onlarla maraqlanır, müxtəlif layihələrin həyata keçirilməsində iştirak edirlər. Yeri düşmüşkən deyim ki, ahıllar üçün şəhər gəzintiləri, onların muxtar respublikamızın gəzməli-görməli yerləri, tarixi abidələri ilə tanışlığı məqsədilə ekskursiyaları təşkil edilir. Bu da ahılların asudə vaxtlarının səmərəli təşkilində əhəmiyyətli rol oynayır.

***Beynəlxalq Ahıllar Günü münasibətilə ziyarət etdiyimiz Şahbuz şəhərindəki Ahıllar Evində yaşayan vətəndaşlarımıza bu gün hərtərəfli dövlət qayğısı göstərilir. Onlar üçün burada yaradılmış şərait ahıl vətəndaşlarımızın rahat yaşamalarına, göstərilən qayğıdan lazımınca faydalanmalarına imkan verir. Buna görə də Ahıllar Evi yaşlı sakinlərin doğma ocağına çevrilib.***

**Gülcamal TAHİROVA**

# Hər kitab bizə mütləq nə isə öyrədir



***Dahi şairimiz Nizami Gəncəvi deyirdi: "Bilik öyrənməyi ar bilən hər kəs, dünyada mərifət qazana bilməz". "Bir insanın dəyəri onun oxuduğu kitablarla ölçülür", – bunu isə ingilis filosofu Herbert Spenser deyib. Bu iki fikir, əslində, bir-birini tamamlayır. Hər iki fikirdə cəmiyyət əxlaqının mənbəyində kitab mütaliəsinin dayandığı aydın olur.***

Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqına, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati məsələ kimi baxıb. Bütün bunların qorunub saxlanılmasında, gənc nəslə ötürülməsində kitabın çox böyük rolu vardır. Biz insanlar həyatı həm yaşayaraq öyrənirik, həm də oxuyaraq. Qədim tarixə, zəngin mədəniyyətə, köklü mənəvi dəyərlərə malik xalqımız bəşəriyyətin təşəkkül dövründən bu günədək maddi-mədəniyyət nümunələri ilə bərabər, mənəvi tərəqqisi ilə də dünya xalqları arasında özünəməxsus yer tutur. Bu baxımdan insanların ən önəmli maddi-mənəvi nemətlərindən sayılan kitab və kitaboxuma vərdişləri Azərbaycanda da vacib amil kimi qiymətləndirilir.

Bu gün kitab oxumaq bir çox insanların əsas məşğuliyyəti olsa da, bəzilərinin kitaba münasibəti dəyişib. Ölkədə kitab oxuyanların sayı əvvəlki dövrlərlə müqayisədə xeyli azalıb. Məsələyə təkcə Azərbaycan miqyasında deyil, qlobal müstəvidə yanaşdıqda məlum olur ki, kitaba tələbat bütün dünyada aşağı düşüb. Bunun bir sıra obyektiv səbəbləri var. Bəzən fikirlər səslənir ki, texnoloji imkanların mövcudluğu, kompüter, telefon və sair kimi informasiya vasitələrinin sürətlə inkişafı istər-istəməz kitablara olan diqqəti ikinci plana keçirir. Artıq insanlarda yeni maraqlar, yeni axtarışlar formalaşmağa başlayır. Müasir dövrümüzün reallıqlarını nəzərə alsaq, bu yanaşmanın gerçəyə çox yaxın olduğunu görə bilərik.

Bəs kitabın mahiyyətini, faydasını və vacibliyini dərk edirikmi? Öncə deyək ki, kitab oxumaq insanın intellektual səviyyəsinə, dünyagörüşünə müsbət təsir göstərir. Bundan başqa, kitab bəşər həyatında qalacaq miras, inkişafyaradıcı və ziyalandıran ünsürdür. Kitab elm və mərifət dünyasına açılan qapıdır. İnsanı kamilləşdirən, onun nitq qabiliyyətini inkişaf etdirən kitabların saxlandığı yer kitabxanalardır. Hər bir insan, heç olmasa, həftədə iki dəfə kitabxanaya getməli, özünün mütaliə qabiliyyətini gücləndirməlidir. Kitabxanalarda elə kitablar var ki, insanların həyatında mühüm rol oynayır. Kimi həmin kitablardakı qəhrəmanların müsbət keyfiyyətlərini mənimsəyərək, kimi də oradan öyrəndiklərini həyatda tətbiq edərək yaşayışını qurur. Yaxşı kitab həmişə aqil insanın həyatına işıq salan vasitə olub. Boşuna deyilməyib ki, kitab nəsillərin bir-birinə vəsiyyətidir. Bizə vəsiyyət edilmiş kitaboxuma ənənəsini yaşadan, gənc nəslə vəsiyyət edən, örnək olan insanlarımız da az deyil.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nın təsdiq olunması ictimai-mədəni, ədəbi-bədii müstəvidə mühüm əhəmiyyətli və təqdirəlayiq bir hadisə kimi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Siyahıya Azərbaycan ədəbiyyatının seçmə nümunələri ilə yanaşı, Teodor Drayzer, Cek London, Gi de Mopassan, Ernest Heminquey, Antuan de Sent-Ekzüperi, Moris Meterlink, Nikolay Ostrovski kimi dünya klassiklərinin əsərlərinin də yer alması onun mahiyyətinə yeni çalarlar qatır, bu kitabları oxuyanların dünyagörüşünün formalaşacağına inam yaradır.

Sərəncama əsasən təhsil və mədəniyyət müəssisələrinin kitabxanalarında müvafiq kitab guşələri yaradılıb. Təhsil aldığım Naxçıvan Dövlət Universitetinin Elektron Kitabxanasındakı, o cümlədən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasındakı kitab guşələri ilə tanış oldum. Universitet kitabxanasının Biblioqrafiya və xidmət şöbəsinin müdiri Maral Babayeva yaradılan kitab guşəsinin tələbələrin, eləcə də müəllim heyətinin diqqətini çəkdiyini, buradakı kitablara oxucu tələbatının çox olduğunu dedi.

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının oxu zalının şöbə müdiri Dilarə Əliyeva bildirdi ki, oxunması zəruri olan kitablar, ilk növbədə, gənc nəsildə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşmasına, onların dünyagörüşünün zənginləşməsinə, dövlətə, dövlətçiliyə, vətənə, xalqa bağlılıq hisslərinin aşılanmasına böyük töhfə verəcək. Oxunması zəruri olan kitabların siyahısının zənginləşdirilməsi işinin diqqətdə saxlanılması gələcəkdə bu siyahıya yeni kitabların əlavə olunacağından xəbər verir.

Ziyalılarımızın ümumi fikri belədir ki, oxunması zəruri olan kitablar gənclərin mütaliəyə olan marağını artıracaq, onları yeni kitablar axtarışına çıxaracaq, oxumağa həvəsləndirəcəkdir. Bütün bunlar muxtar respublikada hərtərəfli inkişaf edən, vətəninə, xalqına və dövlətinə sadiq olan gənclərin yetişəcəyindən xəbər verir.

**Güntac ŞAHMƏMMƏDLİ**
*Naxçıvan Dövlət Universitetinin Radiotelejurnalistika ixtisası üzrə I kurs magistrantı*


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 786